

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 123 (23.034)

*5 iyul 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## *Rəsmi xronika*

İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirilib.

Müşavirəni açan Prezident İlham Əliyev deyib ki, Mingəçevirdəki İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində ölkəmizin enerji təchizatında ciddi problemlər yaranmışdır. Görülmüş operativ tədbirlər nəticəsində bir neçə saatdan sonra enerjinin verilməsi bərpa edilmişdir. Səhər mənim Sərəncamımla məsələni araşdırmaq üçün Dövlət Komissiyası yaradılmışdır və komissiya öz işinə başlamışdır. Komissiya qarşısında bir neçə vəzifə qoyulmuşdur. Onların arasında əsas vəzifə məsələni araşdırmaq və qəzanın səbəblərini aşkar etməkdir. Eyni zamanda komissiya günahkarları müəyyən etməli, onlara qarşı görüləcək tədbirlər haqqında təkliflər verməlidir və gələcəkdə belə qəzaların təkrarlanmaması üçün tədbirlər planı hazırlamalıdır.

Sonra müşavirə iştirakçılarının məsələ ilə bağlı çıxışları olub.

Sonda Prezident İlham Əliyev müvafiq tapşırıqlar verərək qeyd edib ki, tədbirlər planına bu müşavirədə səslendirilən fikirlər də salınmalıdır.



## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpasında səmərəli fəaliyyətlərinə görə:

Əliyev Qoçalı Əli oğlu – **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə;

Babayev Şaban Nəriman oğlu

Əliyev Bayram İbrahim oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 iyul 2018-ci il*

## Qazançı kəndində kompleks quruculuq işləri həyata keçirilir

Muxtar respublikamızda uzun illərdən bəri ucqarlardan başlanan quruculuğun bu günlər Culfa rayonunun Qazançı kəndini də əhatə etməsi yaxın gələcəkdə abadlaşan kəndlərimizin sırasında bu qədim yurd yerinin də müasir siması ilə yer alacağından xəbər verir.



Bu günlər Qazançı kəndinin mərkəzi böyük tikinti meydançasına çevrilib. Burada Culfa rayon Tikinti-Quraşdırma İdarəsi tərəfindən məktəb, həkim ambulatoriyası, kənd və ticarət mərkəzləri üçün yeni binalar inşa edilir. İş icraçısı Babalı Hüseynov tikintilərdə aparılan işlər barədə məlumat verərək bildirdi ki, 216 şagird yerlik məktəb binası ilə yanaşı, bufet, qazanxana və sanitar qovşağın yerləşəcəyi yardımçı bina da tikilir.

Kənd mərkəzi ilə həkim ambulatoriyası ayrı-ayrı girişləri olan bir binada fəaliyyət göstərəcəkdir. İş icraçısı bu barədə dedi ki, bina zirzəmi qatı ilə birlikdə 3 mərtəbədən ibarətdir. Tikinti, ümumilikdə, başa çatdırılıb. Kənd mərkəzində kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, kitabxana, mədəniyyət klubu və sair üçün otaqlar istifadəyə veriləcəkdir. Həkim ambulatoriyasında isə kənd sakinlərinə hərtərəfli tibbi xidmət göstərilməsi üçün stomatoloq, ginekoloq, müayinə, manipulyasiya, pediatr, peyvənd otaqları, aptek fəaliyyət göstərəcəkdir. Bu binada son tamamlama işləri görülür. Belə ki, qapılar salınır, döşəməyə parket vurulur.

Ərzaq və təsərrüfat malları mağazaları, qəssabxana, qadın gözəllik salonu, kişi bərbəri fəaliyyət göstərəcək ticarət mərkəzində isə hörgü işləri aparılır.

**Xəbərlər şöbəsi**

## İqtisadiyyatın dinamik inkişafı təmin edilmişdir

***Muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər və mühüm dövlət proqramlarının icrası nəticəsində dinamik inkişaf qorunub saxlanılmış, yüksək nəticələr əldə edilmişdir.***

Qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün həyata keçirilən məqsədyönlü fəaliyyətin nəticəsi olaraq 2018-ci ilin yanvar-may aylarında muxtar respublikada 959 milyon 712 min 800 manatlıq ümumi daxili məhsul istehsal edilmişdir ki, bu da 2008-ci ilin müvafiq dövründəki göstəricidən 4,2 dəfə çoxdur.

***Yanvar-may ayları üzrə ümumi daxili məhsul istehsalı, min manat***




2018-ci ilin yanvar-may aylarında ümumi daxili məhsulun 54,8 faizi və ya 525 milyon 431 min 100 manatı məhsul istehsalından, 43,6 faizi və ya 418 milyon 615 min 700 manatı xidmətlərin istehsalından, 1,6 faizi və ya 15 milyon 666 min manatı isə məhsula və idxala xalis vergilərdən yaranmışdır. 2008-ci ilin müvafiq dövründə ümumi daxili məhsulun 42,1 faizi məhsul, 53,2 faizi xidmətlərin istehsalından, 4,7 faizi isə məhsula və idxala xalis vergilərdən yaranmışdır. 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalının artımı sənaye, kənd təsərrüfatı və tikinti sahələrində həyata keçirilən effektiv tədbirlər nəticəsində əldə edilmişdir.

2008-ci ilin müvafiq dövründə ümumi daxili məhsulun tərkibində sosial və digər xidmətlər sahəsi ilk yerdə təmsil olunurdusa, 2018-ci ilin ötən dövründə sənayenin payı daha çox olmuşdur. Sənayenin ümumi daxili məhsulun tərkibində ilk yerdə təmsil olunması muxtar respublika iqtisadiyyatının istehsal potensialının yüksəldiyini sübut edən mühüm göstəricidir.

Sənayenin artımı ilə yanaşı, bu dövrdə daxili bazarın tənzimlənməsində mühüm sahə olan kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılmış, məhsul istehsalının həcmi 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artmışdır.

İnfrastruktur quruculuğu, yeni istehsal və xidmət sahələrinin yaradılması istiqamətində 2018-ci ilin ilk beş ayında əsas kapitala vəsait qoyuluşu 2008-ci ilin müvafiq dövründəki göstəricini 4,3 dəfə üstələyərək 394 milyon manatı ötmüşdür. Ümumilikdə, 2008-ci ilin iyun ayının 1-dən 1 iyun 2018-ci il tarixədək muxtar respublikada bütün sahələrin inkişafına 8 milyard 240 milyon manatdan çox vəsait yönəldilmişdir ki, bunun da 7 milyard 401 milyon 926 min manatı tikinti-quraşdırma işlərinin payına düşüb.

Muxtar respublikada iqtisadiyyatın hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı məqsədilə təkcə 2018-ci ilin yanvar-may aylarında təsərrüfat subyektlərinə 9 milyon 399 min 900 manat dəyərində kreditlər verilmişdir. Kreditlərdən 5 milyon 666 min 300 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 3 milyon 733 min 600 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Ümumilikdə, 1 iyun 2008-ci ildən 1 iyun 2018-ci il tarixədək muxtar respublikada iqtisadi fəaliyyətin bütün sahələrinə 466 milyon manatdan artıq kredit qoyuluşu həyata keçirilmişdir.

2018-ci ilin may ayının sonuna muxtar respublikada 382 növdə məhsul istehsal olunmuşdur ki, bunun da 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilmişdir.

Artan əhali tələbatına uyğun olaraq 1 iyul 2008-ci ildən 1 aprel 2018-ci il tarixədək muxtar respublikada 38 min 548 yeni iş yeri yaradılmışdır ki, bunun da 34 min 174-ü və ya 88,7 faizi daimi iş yerləridir. Açılmış daimi iş yerlərinin 1481-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 11 min 272-si mövcud müəssisə və təşkilatlarda, 46-sı fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 21 min 375-i isə fiziki şəxslərdə yaradılmışdır. İş yerlərinin 12 min 2-si dövlət sektorunda, 26 min 546-sı qeyri-dövlət sektorunda açılmışdır.

Məhsul istehsalı əhali gəlirlərinin artımını təmin etməklə yanaşı, xidmət sektorunun da inkişafına imkan yaratmışdır. Belə ki, 2018-ci ilin yanvar-may aylarında nəqliyyat sektorunda yük daşınması 1,8, informasiya və rabitə xidmətləri 2,3, pərakəndə əmtəə dövriyyəsi 4,7, əhaliyə göstərilən ödənişli xidmətlər isə 3,5 dəfə artmışdır.

Müqayisə olunan dövrdə yerli istehsalın inkişafını xarakterizə edən digər bir göstərici kimi ixrac 19,2 dəfə artmış, idxal isə 24,1 faiz azalmışdır.

Sənayenin üstün mövqedə olduğu rəqabətədavamlı və ixrac potensiallı məhsullar istehsal edən innovativ iqtisadiyyatın qurulması muxtar respublikanın iqtisadi gücünün möhkəmləndirilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına imkan yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq işləri, yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması işçilərin əmək hüquqlarının qorunması və əməyin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsini şərtləndirir.***

## İş yerlərində əməyin mühafizəsi tədbirləri diqqət mərkəzində saxlanılır

2011-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, 2012-ci ildə tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması və 2014-cü ildə tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirələrdə verilən tapşırıqların icrası əməyin mühafizəsi sahəsində müsbət nəticələrin əldə edilməsinə səbəb olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etmələrinə nəzarət işləri davam etdirilir və müvafiq tədbirlər görülür. Həmin tədbirlər nəticəsində əməyin mühafizəsi qaydalarının pozulmasına görə inzibati xəta hallarında, həmçinin istehsalatda baş vermiş bədbəxt hadisələrin sayında ötən illərlə müqayisədə azalma qeydə alınıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin iş planına uyğun olaraq istehsal və tikinti sahələrində çalışan işçilərlə iş yerlərində əməyin mühafizəsi norma və qaydalarına əməl edilməsinə dair mütəmadi olaraq maarifləndirici görüşlər keçirilir. Qeyd edilən tədbirlərin davamı kimi iyunun 14-də "Gəmiqaya Daş Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində, Naxçıvan şəhərinin Heydər Əliyev prospektində 44 mənzilli yaşayış binasının, həmçinin Əziz Əliyev küçəsində 200 yerlik uşaq bağçasının tikinti sahəsində, işçi heyətlə "İş prosesində fərdi və kollektiv mühafizə vasitələrindən istifadənin əhəmiyyəti" mövzusunda maarifləndirici söhbətlər aparılıb. Söhbət zamanı əməyin mühafizəsi sahəsində işəgötürənin və işçilərin vəzifələrinə dair iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# O ordu güclüdür ki, onun əsgərlərinin döyüş ruhu yüksəkdir

## Ali Məclis Sədrinin Günnüt kəndindəki hərbi hissədə əsgərlərlə görüşü bu ruhu daha da yüksəldib



*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu prosesinə ötən əsrin 90-cı illərində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanılmışdır. Azərbaycanda ilk milli hərbi birləşmələrin formalaşdırıldığı bu qədim diyarın strateji mövqedə yerləşməsi onun təhlükəsizliyinin daim ön planda saxlanılmasını zəruri etmişdir.*

Dahi şəxsiyyətin siyasi dəst-xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, ötən dövrdə muxtar respublikanın təhlükəsizlik məsələləri daim ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun idarəçilik fəaliyyətində qırmızı xətlə keçmiş, Naxçıvanın hərbi gücünün daha da artırılması prioritet məsələ kimi qarşıya qoyulmuşdur. Ölkəmizin müharibə şəraitində olması isə bu amili daha da gücləndirmişdir. Buna görədir ki, ötən illər ərzində muxtar respublikada ordu quruculuğu sahəsində mühüm işlər görülmüş, birləşmə və hərbi hissələr üçün nümunəvi xidmət şəraiti yaradılmışdır. 2013-cü ildə yaradılmış Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi, hərbi birləşmələrin təyinatı üzrə döyüş ləvazimatları ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlığının artırılması sahəsində görülən işlər Naxçıvanın hərbi gücünün peşəkar səviyyədə artırılmasına imkan vermişdir.

Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümü ərəfəsində isə ordumuzun əldə etdiyi nailiyyətlər muxtar respublikanın ən yeni hərb tarixinə böyük hərflərlə yazılmışdır. Belə ki, Şərur rayonunun 26 ildir, işğal altında olan Günnüt kəndi və ətraf ərazilər uğurlu əməliyyat nəticəsində düşmən tapdağından azad edilmiş, 11 min hektar torpağa ordumuzun nəzarəti təmin olunmuşdur. Nəticədə, Əlahiddə Ümumqoşun Ordu düşmənin mühüm strateji yollarına nəzarəti ələ almış, onun üzərində böyük üstünlük qazanmışdır. Belə ki, 26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər ələ keçirilmişdir. Qızılqaya yüksəkliyinin ələ keçirilməsi İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan vermişdir. Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə





məqsədilə 50 kilometr yeni yol çəkilmiş, 60 kilometrdən artıq yararsız yollar bərpa edilmişdir. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulmuşdur. Müdafiə rayonunun qorunmasının təşkili məqsədilə ərazidə qısa müddətdə mühəndis istehkam tədbirləri görülmüş, postlar arasında dayanıqlı rabitə əlaqəsi qurulmuş, yeni səngərlər qazılmışdır. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi yaradılmışdır.

Qazanılan uğur Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən "Uğurlu Naxçıvan əməliyyatı" adlandırılmışdır. Bu əməliyyatda iştirak edənlərin qəhrəmanlıqları yüksək qiymətləndirilmiş, onlar göstərdikləri xidmətlərə görə təltif olunmuşlar. Eyni zamanda bu hərbi üstünlük ordumuzun şəxsi heyətinin döyüş ruhunu daha da artırmışdır.

İyulun 3-də Günnüt kəndində və ətraf ərazilərdə yerləşən postlarla tanış olan Ali Məclisin Sədri hərbi əməliyyatların uğurla başa çatması münasibətilə şəxsi heyətə təşəkkürünü bildirərək demişdir: ***"Azərbaycan Ordusunun uzun illərdən sonra tarixi torpaqlarımıza nəzarət etməsi mühüm nailiyyətdir. Bu həm torpaqlarımızın işğaldan azad olunması, həm də kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə etməyə imkan yaranması deməkdir. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, ordu quruculuğu sahəsində görülən işlər torpaqlarımızın işğaldan azad olunmasına yönəldilmişdir. Azərbaycan dövləti torpaqlarımızın sülh yolu ilə azad olunmasının tərəfdarıdır. Lakin aprel döyüşləri bir daha təsdiq etdi ki, Azərbaycan həm sülh, həm də müharibə yolu ilə torpaqlarını azad etməyə qadirdir. Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi".***

Ali Məclisin Sədri ərazidə xidmət aparan hərbi qulluqçularla görüşündə bildirmişdir ki, vaxtilə bu ərazilər ermənilər tərəfindən işğal olunmuş, Günnüt kəndində yaşayış yerləri dağıdılmışdır. Lakin uğurlu əməliyyatlardan sonra 10 min hektardan artıq əkinəyararlı torpaqlar nəzarət altına keçmişdir. Bu, Azərbaycan Ordusunun gücünün və şəxsi heyət arasındakı ruh yüksəkliyinin göstəricisidir. O ordu güclü deyil ki, onun çoxlu silah-sursatı vardır. O ordu güclüdür ki, onun əsgərlərinin döyüş ruhu yüksəkdir. Keçirilən əməliyyatlar Azərbaycan Ordusunun döyüş ruhunu göstərdi. İtki verilmədən torpaqlarımız geri alındı.

Daha sonra Ali Məclis Sədrinin bölük mərkəzində şəxsi heyətlə görüşməsi, onlara hədiyyələr təqdim etməsi əsgər və zabitlərimizdə böyük ruh yüksəkliyi yaratmışdır.

Qeyd edək ki, işğaldan azad edilmiş Günnüt kəndi və ətraf əraziləri zəngin bitki örtüyünə malikdir. Burada arıçılığın, maldarlığın inkişafı üçün əlverişli şərait mövcuddur. Artıq bu sahədə müəyyən işlərin görülməsinə başlanılıb. Belə ki, iyulun 3-də Günnüt kəndində olan Ali Məclisin Sədri burada arıçılarla da görüşmüş, təsərrüfat sahiblərinə kənddə hərtərəfli şəraitin yaradılacağını bildirmişdir.

Bəli, ordumuzun gücü Günnüt kəndi üzərindəki tarixi haqqımızı 26 ildən sonra bərpa etdi. Bu gün artıq Günnüt və ətraf ərazilər qəhrəman Azərbaycan əsgərinin rəşadəti, ayıq-sayıqlığı ilə qorunur. Eyni zamanda illərdir, qayğıya, nəvazişə ehtiyacı olan bu torpaqlar yenidən Naxçıvan kəndlisinin əlindədir. Bu imkanı bizə tanıyan isə ordumuzdur. Məhz Azərbaycan əsgərinin yüksək döyüş ruhuna sahib olması tezliklə Günnüt kəndinin məişət və təsərrüfat həyatına öz təsirini göstərəcək, günnütlülərin qurub-yaratmaq əzmini daha da yüksəldəcəkdir.

**✍ Səbuhi HƏSƏNOV**

# Həyat eşqi

***Bu dünyada hamının Tanrı payı, ömür qisməti heç də bərabər olmur. Heç də hamımız həyatın hamar yolları, rəvan axarı ilə getməyib bəzən mənəvi sarsıntılarımız, fizioloji-psixoloji mücadilələrimizlə yaşamaq uğrunda mübarizə aparmalı oluruq. Bu mübarizədə isə taleyə boyun əyməyib həyatsevərliliyi, intellekti, zəhmətkeşliyi, Vətənə və torpağa bağlılığı ilə özünü cəmiyyətdə təsdiq etmək gücünə qadir olanlar qalib gəlirlər. Fiziki imkanlarının məhdudluğuna rəğmən həyata dördəlli sarılmaları, qabiliyyət və səriştələri ilə cəmiyyətin ən yararlı üzvlərinə çevrilən bu insanlar, əslində, həm də ilahi ərməğan olan cansağlığını, verilən həyat fürsətini dəyərləndirmək üçün bizlərə ibrətli nümunədirlər.***



Bu il 94 ton taxıl tədarük etmiş Babək rayonunun Şəkərabad kənd sakini, məhdud fiziki imkanlı fermer Aslan Məhərrəmovla görüşərkən yolboyu beynimdə dolaşan bu fikirləri özlüyümdə bir daha təsdiqlədim. O, taleyinə boyun əyməyib, kiminsə əlinə baxmaqla, təmənnalı yaşamaqla barışmayıb, sözün əsl mənasında, aslan kimi həyatla mübarizəyə qalxıb və əzmi, iradəsi ilə qalib gəlib. Yaşadığı çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, həyatdan, belə desək, əlini, ümidini üzməyib. Dünəndən bu günə çətin bir yol keçib. Heç bir fiziki məhdudiyyət onu nələri isə əldə etməkdən, qazanmaqdan məhrum edə bilməyib. Əksinə, çox sağlam insandan daha artıq zəhmət çəkib, alnının təri ilə özünə gün-güzəran, yaxşı yaşayış qura bilib. Onun dediklərindən: "48 yaşım var. Elə kənddə anadan olmuşam. Gördüyünüz bu ucsuz-bucaqsız torpaq sahələrini ikinci evim hesab edirəm. Bəzən düşünürəm ki, məni həyata bağlayan, yaşamağa vadar edən əsas amillərdən biri də bu üzağardan bağrı qara torpaqdır. Fiziki imkanlarım məhdud olduğuma görə daim dövlətimizin qayğısını, bu sahədə həyata keçirdiyi humanist siyasəti öz üzərimdə hiss etmişəm. 2009-cu ildə isə belə qərara gəldim ki, fiziki məhdudiyyətim əkin-biçin üçün maneə yaratmamalıdır. İlk vaxtlar qohum-qardaş qərarımı heyrətlə qarşıladı. Lakin, nəticədə, yaxşı bir ailə təsərrüfatı qurmağa müvəffəq oldum".

Bu gün Aslan nəinki Babək rayonunun, hətta muxtar respublikanın ən nümunəvi torpaq mülkiyyətçilərindən birinə çevrilib. Bir də ki dövlətin Naxçıvan kəndlisi üçün nəzərdə tutduğu bütün stimullaşdırıcı tədbirləri göz önünə gətirəndə, düşünürsən ki, bu cür təsərrüfat qurmaq heç də çətin deyil. Dövlət sahibkarın qolundan tutur, suyunu, torpağını, toxumunu, gübrəsini verir. Deyir, ək-biç, məhsul bolluğu yarat, ərzaq təhlükəsizliyinə töhfə ver. 57 hektar sahədə əkin keçirən zəhmət adamı Aslan Məhərrəmov kimi... Bu il 47 hektar taxıl sahəsindən məhsul tədarük edən sahibkar 2 hektarlıq ərazidə günəbaxan, 8 hektar sahədə isə bostan-tərəvəz məhsulları əkib-becərib. Naxçıvançayda quraşdırılan nasoslar vasitəsilə suvarmanı həyata keçirən müsahibimiz həm də Şahbuz rayonunun Yuxarı Qışlaq kəndində 20 arı ailəsi saxlayır. Naxçıvanın satış obyektlərinə göndərdiyi məhsullar öz dadı və keyfiyyəti ilə seçilir. Torpağı ən yaxşı iş yerinə çevirən fermer aylıq əməkhaqqı 450 manat olan 4 yeni iş yeri yarada bilib. Torpaqdan əldə etdiyi gəlir hesabına özünə "Mersedes" markalı avtomobil alıb.

Torpağa tər töküb, zər qazanan həmsöhbətim deyir ki, bütün bu uğurlarımın fonunda böyük bir güc, qüvvə var: o



da dövlətimizdir. Ayaqlarımı itirsəm də, həyatdakı ümidimi itirməmişəm. Əvvəllər muxtar respublikada fiziki imkanlarını itirənlər böyük çətinliklər yaşayırdılar. Bu gün dövlətimiz bu qəbildən olan insanlara həssaslıqla yanaşır. İndi Naxçıvanda Əlillərin Bərpa Mərkəzi, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi və digər dövlət qurumları fəaliyyət göstərir. Bu da həmin kateqoriyadan olan insanların sağlamlığının bərpasına, onların cəmiyyətə adaptasiya olmasına böyük stimul verir. Şükür, bu gün mən də heç kimə yük deyiləm, dolanışıq dərdi çəkmirəm. Evdə hər zaman oğul-uşağa da başa salıram ki, həyatda heç vaxt ələbaxım yaşamaq olmaz. Zəhmət bataqlıqda belə, gül bitirər. Çalışın qazandığınız bütün nailiyyətlərdə özünüzün imzanız olsun. Gördüyüm bütün təsərrüfat işlərində oğlanlarım mənə yaxından köməklik göstərirlər. Böyük oğlum Eldar Şəkərabad məktəbinin X sinfində oxuyur. Təhsil ocağının yaxşı şəraiti var. Buna görə də keçirilən sınaq-test imtahanlarında 400-500 intervalında bal toplayır. Ümumiyyətlə, kəndimizdə sosial problemlər uğurla həll olunur. Bu yaxınlarda Ali Məclis Sədrinin iştirakı ilə Şəkərabadda içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verildi. 400-ə yaxın ev birləşməsi aparıldı. İndi ekoloji cəhətdən təmiz sudan istifadə edə bilirik. Fiziki imkanları məhdud şəxslərə göstərdiyi diqqətə, torpaq mülkiyyətçiləri üçün yaratdığı şəraitə, kəndimizdə həyata keçirdiyi genişmiqyaslı abadlıq işlərinə görə muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

Aslan Məhərrəmovun həyatı, doğrudan da, hər birimizə nümunə olacaq gücdədir. Uca Yaradanın ona bəxş etdiyi həyat eşqi, torpaq sevgisi, yurda bağlılıq sayəsində sabaha hər zaman böyük inam və nikbinliklə baxıb. Deməli, heç bir fiziki məhdudiyyət qarşımızda əngəl, maneə ola bilməz. Aslan kimi torpaq aşiqini görəndə Naxçıvanda dövlətimizin insan amilinə böyük diqqət və həssaslıqla yanaşmasını bir daha minnətdarlıqla xatırlayırsan. Muxtar respublikamızda sahibkarlar, sağlamlıq imkanları məhdud şəxslər üçün yaradılan hərtərəfli şərait, heç şübhəsiz ki, bu gözəl diyarımızın sosial-iqtisadi inkişafına bundan sonra da öz bəhrəsini verəcək.

***P.S.*** *Sağollaşıb yola düşmək istəyirdik ki, Aslan "Yayın bu qızmar günlərində Naxçıvanın brend məhsulu, min bir dərdin dərmanı olan bu mineral sudan dadlısı varmı?!" – deyə bizi özünün işlətdiyi xidmət mərkəzində buz kimi "Sirab" suyuna da qonaq etdi.*

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***



Təhsil millətin gələcəyidir

## Ulu öndərin adını və ideyalarını uğurla yaşadan təhsil ocağı

*2004-cü il sentyabr ayının 2-də naxçıvanlıların daha çox üçüncü mikrorayon kimi tanıdıqları Babək məhəlləsində yeni məktəbin istifadəyə verilməsi təkcə Naxçıvanın təhsil ictimaiyyətinin, şəhər əhalisinin deyil, bütün muxtar respublika sakinlərinin böyük sevincinə səbəb oldu. Çünki açılış mərasimində ulu öndərin siyasətini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev iştirak edirdi. Bu, sadəcə, bir məktəb binasının istifadəyə verilməsi deyildi, ümummilli liderimizin təşəbbüsü ilə tikilən və həm də onun adına ucaldılan bir abidənin açılışı idi. Dövlət başçısı açılış mərasimində dedi:* ***“Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun”.***

Ölkə başçısının bu sözlərini 14 ildir ki, pedaqoji kollektiv özünün fəaliyyət proqramına çevirib. Bu səbəbdəndir ki hər tədris ili yüksək nəticələrlə başa çatır. İlk ən böyük nəticə isə məktəbin 2007-2008-ci tədris ilinin yekununa görə ölkəmizdə “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmasıdır. Qazandığı uğurlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında” 2014-cü il 21 avqust tarixli Sərəncam imzalayıb. Həmin Sərəncama əsasən oktyabr ayının 22-də məktəbin 10 illiyi təntənəli şəkildə qeyd edilib. Tədbirdə Ali Məclisin Sədri məktəbin kollektivinə müraciət edərək deyib: ***“Vətənpərvər gənclik dövlətin gücü və onun əsas dayağıdır. Bu gün Heydər Əliyev adına tam orta məktəbdə təhsil alan şagirdlərə, məktəbi bitirən məzunlara baxarkən qürur duyuruq. Fəxr edirik ki, gənclərimiz sabahımızın təminatçısı kimi yetişir, Vətənə, Azərbaycançılıq idealına sadiqlik ruhunda tərbiyə olunurlar”.*** Məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Namiq Məmmədov deyir ki, 14 ildir, məktəbin kollektivi təhsil ocağında ölkə Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyələrini əldə rəhbər tutaraq milli təhsilimizin tərəqqisi naminə çalışır, müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər gənclər yetişdirilməsi üçün bütün imkanlarını səfərbər edir. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş ulu öndərin adına, Onun ideyalarına layiq olmalıdır.

14 il ərzində təhsil ocağını yüksək qiymətlərlə bitirənlərdən fərqlənmə attestatı, qızıl və gümüş medal alan məzunlar etimadı yüksək səviyyədə doğruldurlar. Məktəbin şagirdlərindən birinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na salınıb.

Təhsil ocağının qazandığı uğurlar belə deməyə əsas verir ki, pedaqoji





kollektiv məsuliyyətini dərindən dərk edir, işini dahi rəhbərin adına layiq səviyyədə qurmağa səy göstərir. Elə bu səbəbdəndir ki Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik məlumatlarında Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında öndə gedir.

Məzunlar 2017-2018-ci tədris ilində də məktəbin tarixinə yeni uğurlar yazıblar. Onlardan 4-ü fərqlənmə attestatı, 1-i isə qızıl medal ilə məktəbi başa vurub. Qəbul imtahanlarının birinci mərhələsinin nəticələri xeyli sevindiricidir. Belə ki, məzunların 98 faizi ali məktəb tələbəsi adına real namizəddir. Onlardan on bir nəfəri 500-700, dörd nəfəri isə 600-700 intervalında bal toplayıb.

Məktəbdə güclü təhsil ənənələri yaradılıb. Hər il birinci sinfə qəbul edilən və orta təhsillərini başa vuran məzunlar məktəbin həyatındə ulu öndər Heydər Əliyevin büstü önündə görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yol ilə gedəcəklərinə and içirlər. Ali məktəblərdə təhsil alan tələbələrlə kollektivin görüşlərinin təşkil olunması bir ənənə şəklini alıb. Bu və digər belə tədbirlər şagirdlərdə elmə, təhsilə marağı daha da artırır. O da vurğulanmalıdır ki, məktəb təkcə savadlı məzun yetişdirməklə öz vəzifəsini bitmiş hesab etmir, məzunların dövlətçiliyimizə, müstəqilliyimizə, tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda formalaşmasına çalışır.

Respublika fənn olimpiadasında kimya üzrə ikinci yerin sahibi olmuş, qəbul imtahanlarında dördüncü ixtisas qrupu üzrə 691 bal toplamış Arzu Əliyeva deyir:

– Bütün abituriyentlər yüksək bal toplamaq, ali məktəb tələbəsi adını qazanmaq arzusunda olur. Onların hamısı uğurlu nəticə əldə edərək həm ailəsini, müəllimlərini sevindirmək, həm də istədikləri təhsil ocağında seçdikləri ixtisasda təhsil almaq istəyir. Lakin abituriyent bu sevinci, sadəcə, yaxşı çalışaraq yaşaya bilər. Mən də arzuma bu yolla çatdım, ali məktəblərə qəbul imtahanlarında 691 bal toplamağa müvəffəq oldum. Bu böyük uğura nail olmağımda orta təhsil aldığım Heydər Əliyev adına məktəbdə bizə elmlərin sirlərini öyrədən müəllimlərimin əməyi əvəzsizdir. Ali məktəblərə qəbul imtahanında yüksək nəticələr göstərən bütün sinif yoldaşlarım adından onlara minnətdarlığımı bildirir, bizə göstərilən etimadı doğruldacağımıza söz verirəm.

Yüksək bal toplayan məzunlardan Minurə Hacısoyun da ürəyi doludur:

– Qəbul imtahanlarının birinci mərhələsində 677 bal toplamışam. İkinci mərhələdə bundan da yüksək bal toplamaq əzmindəyəm. Bilirəm ki, çəkilən zəhmət bəhrəsiz qalmır. Müəllimlərimə minnətdaram ki, mənə bu sevinci bəxş ediblər.

Məktəbin ali məktəblərə qəbulda uğurlu nəticəsi ilə seçilən daha bir məzunu İnci Quliyeva deyir ki, on bir il bizim əziyyətimizi çəkən müəllimlərimizin əməyi danılmazdır. Onlar bizim yaxşı təhsil almağımız üçün çalışan ən fədakar insanlardır. Müəllimlərimizin zəhməti qarşısında baş əyir, ali məktəbdə də yaxşı təhsil almaq üçün ciddi çalışacağıma söz verirəm.

Ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”.*** Heydər Əliyev adına tam orta məktəbin kollektivi görkəmli dövlət xadiminin bu tövsiyəsini əldə rəhbər tutaraq qazandığı nailiyyətləri son hədd hesab etmir. Yaradılan şərait, göstərilən diqqət və qayğı müqabilində rekord uğura nail olmaq əzmi ilə çalışır. Məktəbin uğuru isə cəmiyyətin uğurudur.

✍ **Muxtar MƏMMƏDOV**

*Tarixi abidələrimiz milli sərvətimizdir*

## Möhtəşəm memarlıq incisi

*Qarabağlar Türbə Kompleksinin bərpası milli və bəşəri dəyərlərə töhfədir*

Kəngərli rayonunun Qarabağlar kəndi muxtar respublikamızın böyük yaşayış məntəqələrindən biridir. Hazırda kənd statusu daşıyan bu yaşayış məntəqəsi orta əsrlərdə böyük şəhər olub. Qarabağların Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üzərində yerləşməsi burada elm, mədəniyyət, sənətkarlıq və ticarətin inkişafına mühüm təsir göstərib. Təsadüfi deyil ki, orta əsr səyyahları Qarabağların böyük bir şəhər olduğunu bildirməklə yanaşı, həm də burada gözəl memarlıq abidələrinin – məscid, minarə, karvansara, hamam kimi tikililərin mövcudluğundan bəhs ediblər. Təəssüflər olsun ki, zaman keçdikcə bu tikililərin böyük əksəriyyəti müxtəlif səbəblər üzündən dağılaraq məhv olub, çox az bir hissəsi bu günümüzədək gəlib çatıb. Qoşa minarəli, baştağ və türbədən ibarət kompleks isə dövrümüzədək salamat qalmış möhtəşəm abidələrimizdəndir.

Tarixçilərə görə, bu abidələr Qarabağların orta əsrlərdə inkişaf etmiş mühüm mədəniyyət mərkəzlərindən olduğunun göstəricisidir. Abidə, eyni zamanda təkcə Azərbaycanın deyil, Ön Asiyanın möhtəşəm memarlıq incilərindəndir. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yazır ki, Türbə Kompleksi, Elxanilərin hakimiyyəti illərində tikintisi geniş yayılıb və dindarlığın qapıları mənasını daşıyan əbvab-əl-birr adlı iri xatirə-xeyriyyə komplekslərindən olub. Tərkibində saray, məscid, mədrəsə, xanəgah, şəfaxana, hamam və başqa binalar olan belə komplekslərin mərkəzi tikilisi və dominantı “Ali günbəz” – uca türbə olurdu.

Tədqiqatçıların fikrincə, Qarabağlardakı qoşa minarələr XII, baştağ XIV əsrdə, türbə isə 1332-1337-ci illərdə tikilib. Üslub və tikinti texnikası xüsusiyyətlərinə görə, türbənin tikilmə tarixi Hülakü hökmdarı Əbu Səid Bahadır xanın hakimiyyəti illərinə (1316-1335) aid edilir. Baştağın üzərində olan kitabədə Elxani hökmdarı Hülakü xanın arvadı Qudi xatının adı yazılıb. Ə.Ələsgərzadə kitabəni aşağıdakı kimi oxuyub: “Bu binanın tikilməsini... Cahan Qudi xatın əmr etdi”.



Akademik İsmayıl Hacıyev mənbələrə əsasən bildirir ki, Qarabağlar türbəsi Elxanilər sülaləsindən olan yeddinci vəliəhd Sultan Əhmədin ölümündən sonra onun anası Cahan Qudi xatının əmri ilə tikilib. Mənbələrdə adı Quti, Qudi, Qutuy xatın şəklində anılan Qudi xatın tarixçi Fəzlullah Rəşidəddinin yazdığına görə, “Çox ağıllı və bacarıqlı olub, sarayda yüksək mövqe tuturdu”. Qudi xatın qısa müddətdə olsa da, oğlu Sultan Əhmədin hakimiyyəti illərində, 1282-1284-cü illər arasında dövləti özü idarə edib. O, böyük hörmət və nüfuzunu sonralar da saxlayıb.



Qeyd edək ki, Qarabağlar türbəsi ikihissəlidir: sərdabə və yerüstü xatirə abidəsi. Bu abidədə qülləvarı türbənin əsas xüsusiyyətləri əks olunub. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı onun yerüstü kompozisiyasını təşkil edir. Gövdə səthinin belə yarımsilindrik çıxıntılarla işlənməsi yalnız bədii-dekorativ əhəmiyyətə malik olmayıb mühəndis quruluşu cəhətdən də əhəmiyyətlidir. Bir-biri ilə birləşmiş on iki yarımsilindrik çıxıntı divarın ümumi həcmini azaltmaqla bərabər, eyni zamanda türbəyə bir qala görkəmi də verir. Türbənin kompozisiya xüsusiyyəti dörd baştağlı olmasıdır. Dörd coğrafi səmtə cəhətlənən giriş yerləri türbəni dörd bərabər hissəyə bölür. Binanın bütün səthlərində xırda şirli yaşıl kərpiclərdən çəkilmiş üzlük qırmızımtıl kərpic fon üzərində onun səthini böyük kvadratlara bölür. Çəpinə qoyulmuş belə kərpiclərdən isə romblar əmələ gəlib. Rombların hər birinin içərisində isə kərpiclərlə “Allahdan başqa Allah yoxdur”, “Məhəmməd – Allahın ona salavatı olsun – Allahın elçisidir” sözləri yazılıb.

Türbənin yaxınlığında iki minarə ucalır. Minarələrin aşağı hissələrində kvadratşəkilli bünövrə düzəldilib. Onun səthində göy rəngli kaşı çəkilmiş kərpiclərdən bəzəklər yaradılıb. Hər iki minarənin içərisində dolama pilləkən vardır. Akademik qeyd edir ki, bu minarələr Azərbaycan ərazisindəki ən qədim kərpic minarələrdəndir. Baştağın özü isə təkcə Azərbaycanın deyil, bütün İslam ölkələrinin memarlığında qoşa minarəli baştağların ilk örnəklərindəndir.

Qarabağlar Türbə Kompleksi zəngin tarixi abidələri ilə diqqətçəkən Naxçıvan diyarında mühüm memarlıq kompozisiyası ilə seçilir. Burada kompleks bərpa işlərinə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il 4 iyul tarixli Sərəncamından sonra başlanılıb. Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə abidə üzərində xeyli iş aparıb. Görülən işlər zamanı türbə və qoşa minarə hissələri bərpa edilib, bunlar arasındakı bölüm, habelə burada aşkar edilmiş təndirlər konservasiya olunub. Eyni zamanda kompleksdə yeni muzey də yaradılıb. Türbənin dam örtüyü dəyişdirilib, daha çox aşınma və dağılmaya məruz qalmış hissələr yenidən bərpa olunub.

***Artıq iki ilə yaxındır ki, bərpa işlərinin aparıldığı Qarabağlar Türbə Kompleksinə ikinci həyat bəxş edilir. Bu abidə tarixi və mədəni zənginliyin təsdiqi kimi xalqımızın milli sərvətidir, eyni zamanda tikinti konstruksiyasına və möhtəşəm memarlıq həllinə görə bəşər mədəniyyətinin bir hissəsidir. Bu baxımdan abidənin bərpası həm milli, həm də bəşəri dəyərlərə bir töhfədir.***

✍ **Səbuhi HƏSƏNOV**

## Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılmasının 20 illiyi qeyd olunub

***İyulun 4-də Cəlil Məmmədquluzadənin ev-muzeyində bu mədəniyyət ocağının yaradılmasının 20 illiyi ilə əlaqədar tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova açıb. Nazir bildirib ki, hazırda ölkəmizdə, eləcə də muxtar diyarımızda müxtəlif profilli muzeylər fəaliyyət göstərir. Bu muzeylər içərisində tanınmış şəxsiyyətlərin ev-muzeyləri xüsusi yer tutur. Həmin mədəniyyət müəssisələri sırasında görkəmli ədib Cəlil Məmmədquluzadənin həm ölkəmizin paytaxtı Bakıda, həm də dahi yazıçının doğulub boya-başa çatdığı Naxçıvan şəhərində yaradılmış ev-muzeyləri də vardır.

Dahi yazıçının Naxçıvan şəhərindəki ev-muzeyi ümummilli lider Heydər Əliyevin 1998-ci il 19 iyun tarixli Sərəncamına əsasən yaradılıb, 1999-cu il oktyabrın 13-də muzeyin açılışı olub. Həmçinin böyük yazıçının vaxtilə müəllimlik etdiyi Nehrəmdə və Cəlilkənddə ədibin xatirə muzeyləri istifadəyə verilib. Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi və Naxçıvan Dövlət Musiqili Dram Teatrı Cəlil Məmmədquluzadənin adını daşıyır.

Görkəmli demokrat ədib, tanınmış yazıçı-publisist Cəlil Məmmədquluzadənin milli şüurun oyanışında, milli ruhun formalaşmasında əvəzsiz rolu olub.

Vurğulanıb ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin yaradıcılığına və şəxsiyyətinə həmişə yüksək qiymət verirdi. Ulu öndər Cəlil Məmmədquluzadə irsinə, onun əsərlərinin tədqiqi və nəşrinə, eləcə də adının əbədiləşdirilməsinə böyük diqqət və qayğı göstərirdi. Məhz ümummilli liderin hakimiyyəti illərində yazıçı haqqında yeni və sanballı tədqiqat əsərləri kütləvi şəkildə nəşr olunub, xatirəsinin əbədiləşdirilməsi üçün böyük işlər həyata keçirilib, yubileyləri təntənəli şəkildə qeyd edilib. Redaktoru olduğu “Molla Nəsrəddin” jurnalının faksimilesinin nəşr edilməsi böyük ədəbi hadisə olmaqla, ictimaiyyət tərəfindən mirzəcəlilşünaslığa göstərilən diqqət və qayğı kimi dəyərləndirilib.



Qeyd olunub ki, böyük yazıçı-dramaturqun irsinə dövlətimiz və xalqımız bu gün də ehtiramla yanaşır. Dövlət başçısının 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə Cəlil Məmmədquluzadənin 140 illiyi ölkəmizdə və muxtar respublikamızda geniş qeyd edilib. Böyük ədiblə bağlı simpozium və elmi konfranslar təşkil olunub, ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik “Naxçıvan” jurnalının bir nömrəsi Cəlil Məmmədquluzadənin 140 illiyinə həsr edilib. Yubiley ərəfəsində böyük yazıçının ev-muzeyi təmir olunub, buradakı ekspozisiya yenidən qurulub və zənginləşdirilib, yazıçının ikicildlik “Seçilmiş əsərləri” işıq üzü görüb. Görkəmli dramaturqun, demək olar ki, bütün pyesləri onun adını daşıyan Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulub.

Sonra Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Hüseyn Həşimli “Cəlil Məmmədquluzadə irsinin öyrənilməsi və təbliğində ev-muzeyinin rolu”, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli “Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı”, Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktor əvəzi Kəmalə Allahverdiyeva “Cəlil Məmmədquluzadənin ev-muzeyinin fəaliyyəti” mövzularında çıxış ediblər.

Tədbirdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorlarının ədibin felyetonları əsasında hazırladıqları kompozisiya maraqla qarşılanıb. Sonda muzeyin ekspozisiyasına baxış keçirilib.

Qeyd edək ki, bu gün ev-muzeyində 2045 ədəd eksponat mühafizə olunur. Onlardan 273-ü ekspozisiyada nümayiş etdirilir, muzeyin fondunun zənginləşdirilməsi qayğısına qalınır, ədibin həyat və yaradıcılığına aid dərslər burada əyani şəkildə keçilir.

**Əli RZAYEV**

## Arxeoloji araşdırmalar aparılır



Diyarımızın əlverişli coğrafi şəraiti və təbii sərvətləri qədim mədəniyyətlərin formalaşmasında mühüm rol oynamışdır. Naxçıvanın qədim mədəniyyətləri Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. Eramızdan əvvəl III minilliyin sonunda iqtisadiyyatın və ticarətin inkişafı bu diyarda şəhərtipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir.

Naxçıvanda şəhər mədəniyyətinin formalaşmasını daha geniş tədqiq etmək məqsədilə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi ilə Duzdağda arxeoloji tədqiqatları davam etdirir. Tədqiqatlar nəticəsində Duzdağ mədənlərinin dünyanın ən qədim duz mədənləri olduğu aydınlaşdırılmışdır. Hazırda burada duzun çıxarılması ilə bağlı infrastrukturlar, duzun mübadiləsi, Yaxın Şərq və Cənubi Qafqazda Naxçıvan duzunun əhəmiyyəti ilə bağlı məsələlər tədqiq edilməkdədir. Araşdırmalar zamanı Eneolit və Erkən Tunc, Dəmir dövrlərinə və orta əsrlərə aid keramika məmulatı, daş çəkiclər tapılmışdır. Müəyyən edilmişdir ki, Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin formalaşmasında Naxçıvanın xammal ehtiyatları, o cümlədən duz əsas yer tutmuşdur. Eneolit dövründən başlayaraq duz həm də mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Şərq ölkələrinə aparılmışdır.

***Xəbərlər şöbəsi***

*Yurdumuzun nemətləri*

## Min bir dərdin dərmanı – *Ordubad tutu*

***Bir çoxlarımızın uşaqlıq xatirələrində tut meyvəsinin özünəməxsus yeri var. Hər yay barmaqlarımızda və üz-gözümüzdəki tut ləkələrini, ağacdan düşəndə cızılmış dizlərimizi necə unuda bilərik? Yediyimiz ən dadlı tut da məhz hansısa budaqdan öz əllərimizlə dərib yediklərimizdir. Tut ağacı ta qədimlərdən insanları bir araya gətirən müqəddəs ağaclardan olub.***

Tutun çırpılma vaxtı bütün ailə məfrəş (“yelan”, “çarşov”, “dəstərxan” da adlandırılan, tut çırpılmaq üçün açılan, xüsusən kisədən tikilən süfrə) bir ucundan yapışır, böyüklərdən biri isə üstü tutla dolu ağacı silkələyir. Onun zərbəsindən göydən sanki bərəkət yağır, hamının üzündə bir sevinc və təbəssüm olur. Tut çırpılıb qurtardıqdan sonra hamı məfrəş ətrafında toplaşır, şipşirin, ağız sulandıran tutdan dadırlar. Ata-babalarımızdan qalma bu adətləri qoruyub-yaşadan insanlarımız tut ağaclarını müqəddəs, onun meyvəsini isə yoldan ötənlər üçün ehsan hesab ediblər. Qədim zamanlardan Şərqdə hörmətlə yanaşılan, böyük qol-budağa malik tut ağacları insanları həm də qızmar gün şüalarından qoruyub.

Muxtar respublikamızın bütün bölgələrində, demək olar ki, tut ağacları əkilib-becərilir. Yayın cırhacırında isti bölgələrimizdə artıq sovuşsa da, bu bal kimi şirin meyvəni ağız ləzzətilə çoxdan nübar etmiş olsaq da, məqsədimiz qurudulmuşu, doşabı və mürəbbəsilə şöhrət qazanan Ordubad tutundan yazmaq olduğu üçün üz tutduq həmin bölgəyə. Həmsöhbət olduğumuz ordubadlı bağban Əbdül Haşımov bağında 15-ə yaxın tut ağacı olduğunu dedi. O, tut budaqlarını müxtəlif meyvə ağaclarına: armud, heyva, limon, üzüm, gilas və digər ağaclara calaq etməklə dadlı, ləzzətli meyvələr yetişdirir.

Müsahibim deyir ki, tutun elmə 16 növü məlumdur. Ölkəmizdə ağ, xar, dənəli, dana, bənövşəyi, qara tut növləri daha çox yayılıb. Muxtar respublikamızın rayon və kəndlərində isə 3 tut növünə rast gəlinir. Ağ, qara və qırmızı. Bunlardan ağ və qara tut, demək olar ki, bütün yaşayış məntəqələrimizdə yetişir. Ağ tut yabanı şəkildə kiçik meşələrdə, çay sahillərində bitir. Qara tuta isə daha çox düzənganlarda və dağətəyi ərazilərdə rast gəlirik.

Xartut kimi tanınan tut növü ən dəyərli və faydalı hesab olunur. Çünki onun tərkibindəki şəkər, üzvi turşular, zülal və digər maddələr insan sağlamlığı üçün çox xeyirlidir.

Müsahibimin sözlərinə görə, Ordubad rayonunun ucqar yaşayış məntəqələrində ağ tut iyun-iyul, qara tut isə iyul-avqust aylarında yetişir. Qara tut ağacı ağ tuta nisbətən gec inkişaf edir, quraqlığa və soyuğadavamlı, torpağa tələbkar olmayan, istisevən bitkidir. Qara tut ağacının meyvələri tünd-bənövşəyi, tünd-qırmızı və ya qara-qırmızı rəngdə olur. Onun meyvələri sulu, dadlı olur və hər il yetişir.

Əbdül dayı deyir ki, tam böyümüş tut ağacından il ərzində 200-250 kiloqrama qədər məhsul toplamaq mümkündür. Tut meyvəsini vaxtında toplamadıqda öz-özünə tökülür. Buna görə də onu hər 2-3 gündən bir çırpırlar.

Tutdan xalq təbabətində çox qədimdən istifadə edilir. Müsahibim tutun faydası haqda deyir: – Tut meyvəsindən hazırlanmış məhsullardan bir çox xəstəliklərin müalicəsində uğurla istifadə edildiyi barədə vaxtilə böyük təbib, mütəfəkkir və filosof İbn Sina məlumat verib. Onun yarpaqlarını çay kimi dəmləyərək şəkərli diabetdən əziyyət çəkən insanlara, ürək xəstəlikləri olanlara içirdirlər.



Tutdan hazırlanan doşab isə xüsusilə qiymətlidir (Azərbaycanın bəzi regionlarında onu “bəkməz” adlandırırlar). Heç bir şəkər qatılmayan bu qaynadılmış şirə orqanizmə çox faydalıdır. Doşab qarpız, üzüm, yemiş və digər meyvə və tərəvazlərdən hazırlansa da, ağ tutdan bişiriləni onların hamısından xeyirlidir.

Doşab təbii şirinləşdirici kimi həm un məhsullarına vurulur, həm də ondan desert kimi istifadə olunur. Ümumiklikdə, xalq təbabətində doşabdan qankəsici, soyuqdəymənin qarşısının alınmasında güclü təsirə malik olduğu deyilir. O, qaraciyərin, mədənin, ürək-damar sisteminin müalicəsində, o cümlədən qanazlığından əziyyət çəkən insanlar üçün də faydalıdır.

Həmçinin tutdan spirtli içki, sirkə, kompot, sirop, müxtəlif şirələr, mürəbbə, cem, marmelad, şərbət hazırlanır.

Müsahibim onu da diqqətimizə çatdırdı ki, tutdan doşab, mürəbbə, xoşab və tut qurusu hazırlamaq Ordubadda qadınlarımızın bu gün də sevimli məşğuliyyətlərindən biridir. Bu çərəz ilboyu evlərimizdə çay süfrələrini bəzəyir. Bir vaxtlar, müharibənin çətin illərində də tut qurusu və tut meyvəsindən hazırlanan məhsullar insanların aclığının qarşısını alıb.

Meyvəsi kimi tutun ağacından da sənayedə geniş şəkildə istifadə olunur. Gərginliyə və rütubətədavamlılığı yüksək olduğundan ondan mebel, musiqi alətləri, çəlləklər və sair hazırlanmasında istifadə edilir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Gənclərin gəzintisi təşkil edilib

***Şahbuz Rayon Gənclər və İdman İdarəsinin və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə rayon gənclərinin “Naxçıvanı tanıyaq” devizi altında Ordubad rayonunda fəaliyyət göstərən muzeylərə gəzintisi təşkil olunub.***



Şahbuz və Ordubad rayonlarının gəncləri rayon mərkəzindəki Tarix-Diyarşünaslıq Muzeyi, tarixi romanlar müəllifi Məmməd Səid Ordubadi, akademik Yusif Məmmədəliyev, pedaqoq Məhəmməd Tağı Sidqi kimi görkəmli şəxsiyyətlərin xatirələrinin əbədiləşdirildiyi ev-muzeyləri ilə tanış olublar. Onlara elm və sənət xadimlərinin həyat və fəaliyyətlərini, yaradıcılıq yollarını özündə əks etdirən eksponatlar, xatirə şəkilləri haqqında maraqlı məlumatlar verilib, gəncləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Sağlamlıq imkanları məhdud uşaqlar Ağbulaq İstirahət Mərkəzində

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” ilə müəyyənləşdirilən vəzifələrin icrası uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə hazırlanmış Ağbulaq İstirahət Mərkəzində gənclərin “Yay məktəbi”nin qrafikinə uyğun olaraq həmin mərkəzdə sağlamlıq imkanları məhdud uşaqların da “Yay məktəbi”nə start verilib.

Proqrama əsasən həmin qəbildən olan uşaqlar iyulun 3-də Naxçıvan şəhərindən Ağbulaq İstirahət Mərkəzinə yola düşüb və həmin gün mərkəzlə yaxından tanış olublar. İlk gün uşaqlar arasında dama yarışı keçirilib, qaliblər mükafatlandırılıb. Həmçinin gün ərzində oxunması zəruri olan bəzi kitabların mütaliə və müzakirəsi təşkil edilib, günün sonunda isə vətənpərvərlik mövzusunda film nümayiş olunub.

“Yay məktəbi”ndə valideynlərin müşayiətilə sağlamlıq imkanları məhdud 39 uşaq iştirak edir. Onlar üçün istirahət mərkəzinə 1 həkim və 4 nəzarətçi təhkim olunub.

Qeyd edək ki, sağlamlıq imkanları məhdud uşaqlar üçün təşkil edilən “Yay məktəbi” iyulun 6-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Musayev Orxan Mərdan oğlunun adına 2011-ci ildə Naxçıvan Müəllimlər İnstitutu tərəfindən verilmiş B-206045 seriya nömrəli diploma əlavə (qiymət cədvəli) itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kəndindəki şəhid Nüsrət İsmayılov adına tam orta məktəbinə məxsus ştamp itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 479